№ 34 (977) 24-30 avqust 2017-ci il

www.iqtisadiyyat.com

İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

İLHAM ƏLİYEV: AZƏRBAYCANDA GƏLƏCƏK İNKİŞAF ÜÇÜN YAXŞI PERSPEKTİVLƏR VAR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Göygöl rayonunda səfərdə olmuşdur.

Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göygöldəki Qələbə parkında yaradılan şəraitlə tanış olub, Göygöldə əsaslı şəkildə yenidən qurulan 4 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.

* * * *

Göygöl rayonunun Aşağı Zurnabad qəsəbəsi ərazisindəki 3 MVt-luq "Çiçəkli" Su Elektrik Stansiyası əsaslı yenidənqurmadan sonra avqustun 19-da istismara verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev stansiyanın yenidənqurmadan sonra açılışında iştirak edib.

"Azərenerji" ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına stansiya barədə məlumat vermiş, bildirmişdir ki, stansiyanın turbin zalı, üçmərtəbəli idarəetmə və inzibati binası da müasir səviyyədə qurulub. Stansiyada hər birinin gücü 1 MVt olan 3 hidroturbin və 3 hidrogenerator quraşdırılıb. Yenidənqurma işləri çərçivəsində stansiyada 35/6/0,4 kV-luq yarımstansiyalar yaradılıb və elektrik verilişi xətləri çəkilib. Qeyd edilmişdir ki, "Çiçəkli" Su Elektrik Stansiyası iqtisadi və sosial cəhətdən olduqca əhəmiyyətlidir. İldə 20 milyon kVt-saat elektrik enerjisi istehsal etmə gücünə malik olan bu stansiya Göygöl rayonunun tələbatının 15 faizini, Göygöl şəhərinin tələbatının isə 75 faizini ödəyəcək.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kənd Təsərrüfatı Nazirliyinin Göygöl Rayon İdarəsinin inzibati-laboratoriya binasında və zona baytarlıq laboratoriyasında yaradılan şəraitlə tanış olub, Respublika Süni Mayalanma Mərkəzinin açılışında iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Samux rayonunda səfərdə olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Samux rayonuna səfəri çərçivəsində Zazalı-"İmamzadə" kompleksi-Gəncə avtomobil yolunun açılışında iştirak edib.

"Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat vermiş, bildirmişdir ki, uzunluğu 19 kilometrdən çox olan yol yerli şərait nəzərə alınmaqla birinci və üçüncü texniki dərəcələrə uyğun surətdə hissələrlə layihələndirilib. Bu yolun tikilməsi Gəncə şəhərinin şimal hissəsindən keçən əlavə dairəvi avtomobil yolu rolunu oynayaraq, Samux, Şəmkir, Tovuz, Qazax, Gürcüstan ilə dövlət sərhədi istiqamətində və əksinə hərəkət edən nəqliyyat vasitələrinin Gəncə şəhərinin mərkəzinə daxil olmadan yük və sərnişin daşımasını təmin etməyə imkan verəcək.

* * * *

Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin birinci mərhələsi üzrə qurğular da daxil olmaqla 8,55 kilometrlik hissəsinin istifadəyə verilməsi mərasimində iştirak edib.

Hazırda dünyada ərzaq təhlükəsizliyinin təmin edilməsində su ehtiyatları önəmli rol oynayır. Ölkəmizdə də bu sahədə mövcud problemləri həll etmək və qarşıda duran strateji məqsədə çatmaq üçün elmi əsaslara söykənən təhlil aparılaraq mühüm tədbirlər həyata keçirilir. Strateji əhəmiyyətinə və kapital qoyuluşuna görə ən böyük layihələrdən biri - Taxtakörpü və Şəmkirçay su anbarlarının tikintisi başa çatdırılıb.

Bu layihələrin icrası ilə ölkəmizdə minlərlə hektar torpaq sahəsinin suvarılmasına şərait yaranıb. Şəmkirçay su anbarının, ondan su götürən 60,5 kilometr uzunluğunda magistral kanalların istifadəyə verilməsi ilə Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarında 54 min hektar əkin sahəsinin su təminatı yaxşılaşdırılıb, 17 min hektar yeni suvarılan torpaqlar istifadəyə verilib, həmçinin "Şəmkir Aqropark"ın 543 hektar yeni suvarılan sahələri suvarma suyu ilə təmin edilib. Hazırda 690 milyon kubmetr su yığılan bu anbardan Şəmkir şəhərinə içməli su verilir, Gəncə şəhərinə və Samux rayonunun Nəbiağalı qəsəbəsinə isə içməli su xətləri çəkilir.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Samux-Füzuli-Lək-Əlibayramlı-Qarabağlar-Çobanabdallı-Samux avtomobil yolunun açılışında iştirak edib.

"Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat vermiş, bildirmişdir ki, uzunluğu 36 kilometr olan yol dördüncü texniki dərəcəlidir. İki hərəkət zolaqlı yol inşa olunarkən onun üzərində müxtəlif diametrli suötürücü borular və körpü tikilib, 16 yerdə avtobus dayanacağı quraşdırılıb.

* * * *

Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə Samuxda inşa olunmuş 100 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak etmiş, Samux Aqroenerji Yaşayış Kompleksi ilə tanış olmuşdur.

Həmin gün dövlət başçısının Samux rayonuna səfəri çərçivəsində 110/35/10 kV-luq "Yenikənd" yarımstansiyası istifadəyə verilib.

Xalqına və dövlətinə təmənnasız xidmət yüksək mənəvi və əxlaqi zənginlik nümunəsidir

Hər bir xalqın milli inkişaf yolunun banisinə çevrilən böyük liderlər həm də siyasi varislik ənənələri formalaşdıraraq müdrikliklə irəli sürdükləri mütərəqqi ideyaların davamlılığını təmin etmişlər. XX əsr Azərbaycan tarixinin yetirdiyi ən parlaq şəxsiyyət - ulu öndər Heydər Əliyev də müasir Azərbaycan dövlətinin ideoloji-siyasi əsaslarını tarixi irs və ənənəyə uyğun yaradaraq praktik surətdə gerçəkləşdirmiş rəhbər kimi xalqımızın əbədi sevgisini qazanmışdır.

İctimai əsaslarla fəaliyyət göstərən Heydər Əliyev Fondunun yaradılması məramı Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2004-cü il 10 mart tarixli "Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərmanında təsbit edilmiş, bununla qarşıya qoyulan məqsədlər kifayət qədər aydın və konkret şəkildə göstərilmişdi. Fond, ilk növbədə, ümummilli liderin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi siyasi kursun öyrənilməsi və təbliği, habelə bu ideyaların reallaşdırılması niyyətilə yaradılmışdır. Təşkilat ilk gündən elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə, idman və ekologiyaya dair proqram və layihələrin hazırlanıb həyata keçirilməsi, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək məqsədini də qarşıya qoymuşdur.

Müasir dünyanın insanı kifayət qədər realist və praqmatik olduğundan, həyata keçməyən ideyalarla, şüarlarla onun diqqətini uzun müddət hansısa məsələlərə cəlb etmək, düşüncəsini, fəaliyyətini yönləndirmək mümkün deyildir. Bu mənada, ən cəlbedici ideyaları da müzakirələr səviyyəsində saxlamaqla qısa müddətdə dəyərdən salmaq olar. Yəni, insanları real iş və nəticə daha çox maraqlandırır. Heydər Əliyev Fondunun ötən 12 illik fəaliyyətinin diqqətçəkən uğuru ondadır ki, təşkilat ictimai fəaliyyət müstəvisinə irəli sürdüyü ideyaların real icra mexanizmləri ilə birgə qədəm qoymuşdur. Fond özünü Azərbaycan cəmiyyətinə fəaliyyətinin başlanğıc mərhələləri üzrə müəyyən etdiyi tədbirlərin real nəticələri ilə təqdim edə bilmişdir.

Ölkə vətəndaşları təşkilatın məqsədi, məramı barədə hər hansı yazılı proqramlardan, mətbu materiallardan deyil, fondun real fəaliyyət istiqamətlərindən, gördüyü işlərin mahiyyətindən öyrənmişdir. Bütün bunlar isə bir qədər geniş çevrədə götürsək, dünyada Azərbaycana bağlı hər kəsin Heydər Əliyev Fonduna, təşkilatın rəhbəri, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya dərin rəğbətini,

dəstəyini qazandırmışdır.

Heydər Əliyev Fondunun prezidentinin ölkə hüdudlarını çoxdan adlamış fəaliyyəti bu gün həm də qlobal miqyasda savadsızlığın aradan qaldırılmasına, multikulturalizm ideyalarının təbliğinə, fərqli sivilizasiyaların dialoquna xidmət edir. Son illər Bakıda kimisə qlobal beynəlxalq tədbirlərin keçirilməsi xəbərləri ilə təəccübləndirmək olmur. Şübhəsiz, bu və digər beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsinin başlıca səbəbi respublikamızın dünya miqyasındakı nüfuzu, hörmətidir. Bunun nəticəsi olaraq respublikamızın son illər təşkilatçılıq etdiyi beynəlxalq tədbirlərin sırası ildən-ilə genişlənir: Beynəlxalq Humanitar Forum, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransı, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Zirvə görüşü, Krans Montana Forumu, Münxen Konfransı, Ümumdünya Davos Forumu, III Qlobal Bakı Forumu... 2016-cı ilin aprelində respublikamızda 3 minədək qonağın iştirakı ilə daha bir nüfuzlu tədbir - BMT-nin Silizasiyalar Alyansının VII Qlobal Forumu keçirilmişdir.

UNESCO-nun sabiq baş direktoru Koişirio Matsuuranın dediyi kimi, "Azərbaycanın birinci xanımı UNESCO-nun xoşməramlı səfiri kimi təkcə öz ölkəsinin deyil, dünyanın qlobal problemlərinin həllində yaxından iştirak edir".

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidentinin 2015-ci il iyunun 29-da imzaladığı sərəncamla fondun prezidenti Mehriban xanım Əliyeva Avropa Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsindəki müstəsna roluna, ölkəmizin müsbət imicinin dünyada tanınması istiqamətində gördüyü işlərə görə "Heydər Əliyev ordeni" ilə təltif edilmişdir.

2015-ci ildə ilk Avropa Oyunlarının Təşkilat Komitəsinə uğurla rəhbərlik etmiş Heydər Əliyev Fondunun prezidenti 2016-cı ildə keçirilmiş "Formula-1" yarışlarında da eyni missiya ilə Azərbaycanın idman imicinin yüksəlməsinə sanballı töhfələr vermişdir. Fondun Azərbaycanın zəngin mədəni-mənəvi irsinin dünyaya təbliğinə, muğamların, aşıq musiqisinin bəşəriyyətə tanıdılmasına, sivilizasiyalararası dialoq məkanının genişləndirilməsinə, eyni zamanda, maarifçiliyə xidmət edən çoxsaylı layihələrinin qayəsində bir məqsəd dayanır: Azərbaycan xalqının milli mənafeyinin qorunması ilə bağlı həyata keçirilən dövlət siyasətinə dəstək vermək! Fond bu məqsədi müxtəlif beynəlxalq qurumlarla münasibətləri genişləndirməklə, UNESCO və ISESCO kimi mötəbər təşkilatlarla qarşılıqlı faydalı əlaqələr qurmaqla həyata keçirir. Fond Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılması üçün bütün mövcud imkanlardan istifadə edir, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə həyata keçirilən layihələrin məhz bu məqsədə yönəlməsinə çalışır.

İngilis, fransız, ərəb, alman, rus dillərində "Qarabağ həqiqətləri" bukletlər toplusunun hazırlanması və Azərbaycanın xaricdəki səfirlik-

REKLAM MƏTNLƏRİNİN TƏRTİB EDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

Reklam mətnlərinin və ya reklam xəbərlərinin tərtib edilməsi qaydasının nəzərdən keçirilməsi vacib bir məsələdir. Reklam müraciətlərinin konsepsiyası sizin istehlakçıya müraciət edəcəyiniz arqumentlər sistemini və intonasiyanı müəyyən edir, onlar sizin gələcək alıcınızın gördüyü aysberqin üst tərəfi olacaqdır. Buna görə də öz əmtəənizin (malınızın) xeyirinə bütün müsbət sözlərin deyilməsi bu müraciətdə əks olunmalıdır. İstehlakçı sizin ona müraciətinizdən özü üçün nə qədər çox faydalı şey öyrənərsə, məhz sizin əmtəənizin daha çox tələbat şansları olacaqdır. Bəziləri reklamvericinin davranışını məhkəmə prosesində vəkilin davranışı ilə müqayisə edir və burada alıcılar "prisyajnılar" (andlılar) məhkəməsi hesab olunur. Sizin öz məqsədinizə nail olmaq üçün mümkün olan hər şeyi deməyiniz lazımdır. Sahibkarın və reklamvericinin məqsədi isə satışdır.

Sizin deməyə hazır olduğunuz bütün sözlər bu məqsədə tabe olmalıdır. Lakin ona tam həcmdə nail olmaqdan ötrü satılan əmtəəni və potensial alıcıları yaxşı tanımaq lazımdır.

Reklam mətninin xüsusiyyətləri

Sizin əmtəənizdə vacib xassələri müəyyən etmək lazımdır ki, bu xassələri ona oxşarlar içərisindən ayıra biləsiniz. Xatırlayırsınız? "Bizim şoumuz əyləncəli sonlardan ən musiqili olandır və musiqili olanlardan ən əyləncəlisi şoudur". Bu, o demək deyil ki, kimsə xüsusi cihazla verilişlərin musiqili və əyləncəli olmasını müəyyən edir, sonra isə bütün arzu edənlərə statistika verir, lakin buna baxmayaraq, maraqlı gediş tapılmışdır və dövriyyə buraxılmışdır. Bu misal bir qədər zarafat kimi səslənir, lakin ciddi dünyada həmin qayda fəaliyyət göstərir: "Volkswagen" və "Volvo" illərlə sübut etməyə çalışır ki, onların avtomobilləri keyfiyyət və təhlükəsizlik standartıdır, "Toyota" idarəetməyə etibarlılığı və asanlığı reklam edir, "Ferrari" şirkəti isə onun avtomobilini inkişaf etdirməyə qadir olan nəhəng surətini daim təkrar edir. Beləliklə, əmtəənin vacib xassəsi sizin istehlakçıya müraciətinizin əsasıdır. Belə bir xassə hələ reklam konsepsiyasının və mətninin işlənib hazırlanması prosesində tapılmalıdır.

Hər hansı bir reklam müraciətinin əsasında istehlakçının arzularının ödənilməsinə yönələn hərəkət durmalıdır. Üstəlik, sizin gələcəkdə müştərini razı salmaq, firmanın nüfuzunun xeyirinə işləmək cəhdi haqqında sözlər və hərəkətləriniz əmtəələrinizin satışında əlverişli olacaqdır.

Reklam müraciətinin strukturu çoxsaylı amillərlə müəyyən olunur ki, bunların ən vacibləri reklamın istehlakçıya təsirinin məqsəd və xarakteridir. Aşağıdakı əsas təsir səviyyələri ayrılır:

- koqnitiv (informasiyanın verilməsi);
- affektiv (münasibətin formalaşması);
- suggestiv (təlqin, yaxud inandırma);
- konativ (davranışın müəyyən edilməsi).

Koqnitiv təsirin mahiyyəti informasiyanın müəyyən həcminin məhsul, firma, onların fərqləndirici xarakteristikaları və s. haqqında məcmu xəbərlərin verilməsindən ibarətdir.

Affektiv təsirin məqsədi informasiyanın reklam müraciətinin alıcısının göstərişləri, motivlər və prinsiplər sisteminə çevrilməsidir. Münasibətin formalaşması üsulları eyni dəlillərin təkrarlanması, məntiq sübutlarının gətirilməsi, xoş assosiasiyaların müəyyən edilməsidir.

Suggestiv təsir həm dərk olunan psixoloji elementlərin, həm də dərk olunmayan elementlərin istifadəsini tələb edir. Bu, onunla əlaqədardır ki, reklam müraciətinin müəyən hissəsi aktiv təfəkkür sferasının üstündən keçərək, insan tərəfindən mənimsənilə bilər. Təlqinin nəticələri məntiqi sübutlar olmadan formalaşan inandırma ola bilər.

Konativ təsir istehlakçını müəyyən davranışa "azca itələməkdə" ondan gözlənilən hərəkətləri təlqin etməklə reallaşır.

İnsan şüuruna reklam müraciətinin bu əsas təsir səviyyələrinin nəzərə alınması bir sıra reklam modellərinin əsasında durur. Ən tanınmış reklam modeli ATDA (attention – diqqət, interest – maraq, desire – arzu, action – hərəkət) sayılır.

Reklam müraciətinin uğuru ilkin təhlildən birbaşa asılıdır. Satılan əmtəəni səlahiyyətlə təqdim (təmsil) etdiyinizə əminlik yaratmaq üçün siz onun haqqında ümumi şəkildə yox, hər şeyi ətraflı bilməlisiniz. Əmtəənin bilavasitə istehsalını izləyərək bazarda təqdim olunan oxşar əmtəə ilə öz məhsulunu müqayisə edərək və müvafiq ədəbiyyatı oxuyaraq bu informasiyanı əldə etmək olar.

Reklam olunan məhsulu daha səmərəli təsvir etməkdən ötrü aşağıdakı suallara cavab vermək lazımdır:

1.Bu əmtəə insanlar üçün niyə faydalıdır?
2.Bu əmtəə nədən hazırlanmışdır?
3.Onun oxşar əmtəələrdən üstünlüyü varmı?
4. Onun qiyməti necədir?
5. Ona hər hansı bir xidmət lazımdırmı?

Rəqabət aparan əmtəələrə münasibətdə də belə suallara cavab vermək lazımdır və bu cür müqayisə zamanı ən vacib sual belədir: bunlar arasında fərq nədən ibarətdir? Sizin reklamınızın alıcıya düzgün cavabları bu suallara cavab verməlidir.

(davamı gələn sayımızda)

F.M.Qarayev,
BDU-nun dosenti

Məşhur markanın uşaq məhsulları xərçəngə səbəb olur

"Johnson & Johnson" şirkətinin körpə pudrası (kirşanı) məhsullarında xərçəng riski olduğu açıqlandı. 63 yaşlı Eva Echeverria, uzun illər uşaq pudrası istifadə etdikdən sonra yumurtalıq xərçəngi olduğunu iddia edərək məhkəmədə şirkəti udub. Körpə pudrası istehsalçısı "Johnson & Johnson" şirkəti 417 milyon dollar təzminat ödəyəcək.

ABŞ-ın "Johnson & Johnson" şirkəti istehsal etdiyi uşaq pudrasının xərçəngə səbəb olduğu iddiası ilə qaldırılmış məhkəmə işində 417 milyon dollar təzminat ödəməyə məhkum edilib.

Los-Anceles Ali Məhkəməsi şirkətin iddiaçı Eva Echeverria-ya 417 milyon dollar təzminat ödəməsinə qərar verib.

Echeverria 1950-ci ildən 2016-ya qədər istifadə etdiyi pudranın yumurtalıq xərçənginə səbəb olduğunu bildirdikdən sonra cinayət işi açılmışdı.

Echeverria şirkətin pudranı qadınlar tərəfindən gigiyena məqsədli mütəmadi olaraq istifadə edilməsinin xərçəngə səbəb olacağının fərqində olduğunu bildirib. Buna baxmayaraq, şirkət qadınları rütubətin və qoxunun qarşısını almaq üçün körpə pudrası istifadə etməyə təşviq edib.

Echeverria-nın vəkilləri məhkəmə qərarından məmnun olduqlarını bildiriblər.

"Johnson & Johnson"dan verilən açıqlamada isə pudranın xərçəngə səbəb olduğuna federal orqanların hökm etdiyini qeyd edərək, "Qərardan şikayət edəcəyik, çünki bizim əsl sübutumuz "Johnson's Baby" pudrasının etibarlı olduğunu dəstəkləyən elmdir" ifadələrinə yer verilib.

"Johnson & Johnson" şirkəti haqqında eyni iddia ilə ABŞ-da başlanmış 4 min 800 məhkəmə işi var. Keçən il Missuri ştatındakı məhkəmə şirkətin iddiaçılara 300 milyon dollar təzminat ödəməsinə qərar vermişdi.

McDonald's 169 restoranını bağladı

169 restoran françayzinq almış "Connaught Plaza" şirkəti ilə "McDonald's" arasındakı münaqişə səbəbindən bağlanıb.

"Connaught Plaza"nın rəsmisi Vikram Bakshi "McDonald's"a qarşı bütün qanuni hüquqlarından istifadə edəcəklərini bildirib. "McDonald's" firmadan 15 gün ərzində restoranlarından "McDonald's"a aid bütün vizualları götürməyi tələb edib.

İki qurum arasındakı münaqişənin səbəbi bilinmir. Münaqişə nəticəsində 6700 nəfərin işsiz qalacağı gözlənilir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500

"Azərişıq" ASC tərəfindən tam yenidən qurulan yarımstansiyada 16 MVA gücündə iki transformator quraşdırılıb. Fiziki cəhətdən köhnəlmiş 110 kV-luq avadanlıq müasir tipli 110 kV-luq eleqaz açarlar və avadanlıqla əvəz olunub. Yarımstansiyada 2 ədəd 35 kV-luq "1-ci Poylu" və "2-ci Poylu", 6 kV-luq "Qırmızı Samux", "Yenikənd", "Fövqəladə hallar" hava xətləri qurulub. 35 kV-luq "1-ci və 2-ci Poylu" hava xətlərindən budaqlanan Qırmızı Samux kəndi ərazisində 35/6 kV-luq, gücü 2,5 MVA olan "Lüksemburq" adlı müasir qapalı tipli yarımstansiya tikilib. Yarımstansiyadan ümumi uzunluğu 150 kilometr olan 35 kV-luq dörd kabel xətti çəkilib.

Samux rayonunda 35/10 kV-luq "Qarayeri" yarımstansiyası da tam yenidən qurulub. Bu yarımstansiya ümumilikdə 2545 abonentə xidmət edir.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də Gədəbəy rayonunda səfərdə olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də "Gədəbəy Mineral Suları" MMC-nin illik istehsal gücü 6 milyon litr olan limonad zavodunun açılışında iştirak edib.

Məlumat verilmişdir ki, Gədəbəy rayonunun Zəhmət kəndində, iki hektar ərazidə fəaliyyətə başlayan və ümumi dəyəri 4 milyon manat olan zavodun yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1,6 milyon manat güzəştli kredit verilib. Bu müəssisədə 0,33, 0,75 və 1,5 litrlik plastik qablarda armud, tərxun, limon və üzüm limonadları istehsal edilir. Limonad istehsalı korpusu 3500 kvadratmetrdir. Buraya anbar və istehsal sahəsi daxildir. Limonadın xammalı Almaniyanın "Döhler" şirkətindən alınır və avtomatik sistemdə hazırlanır. İstehsalatda istifadə olunan kompressorlar isə Belçika avadanlığıdır.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də 110/35/10 kilovoltluq yeni "Gədəbəy" elektrik yarımstansiyasının açılışında iştirak edib.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev dövlətimizin başçısına yeni yarımstansiyada görülən işlər barədə məlumat vermiş, bildirmişdir ki, görülmüş işlər nəticəsində Gədəbəy rayonunda perspektiv tələbat da nəzərə alınmaqla müvafiq güc mənbələri yaradılıb. 110/35/10 kV-luq "Gədəbəy" yarımstansiyasından əlavə 35/10 kV-luq "Gədəbəy" adlı digər bir yarımstansiya yenidən qurulub. İkidövrəli 110 kV-luq Zəyəm-Gədəbəy hava xətti çəkilib. 35/10 kV-luq "Gədəbəy" yarımstansiyasında 6,3 MVA gücündə transformatorlar quraşdırılıb, köhnə tipli 40 transformator məntəqəsi yeni transformator məntəqələri ilə əvəz edilib.

* * * *

Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gədəbəy şəhərinin içməli su təchizatı layihəsinin açılışında iştirak edib.

* * * *

Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəmkir-Yeni Göyçə-Dağ Cəyir avtomobil yolunun açılışında iştirak edib.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda çox mühüm yol-nəqliyyat layihələri reallaşdırılır. Bu yollardan biri də Şəmkir-Yeni Göyçə-Dağ Cəyir avtomobil yoludur.

"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov yeni yolun texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat vermiş, bildirmişdirdir ki, layihə çərçivəsində 482,2 min kubmetr torpaq işləri görülüb, yol əsasının və çiyinlərin tikintisinə 112 min kubmetr çınqıl, qum-qırmadaş qarışığı və 55 min ton asfalt-beton qarışığı sərf edilib. Şəmkir-Yeni Göyçə-Dağ Cəyir avtomobil yolunun istifadəyə verilməsi ümumilikdə rayonun sosial-iqtisadi inkişafına müsbət təsir edəcək, yük və sərnişin daşınmasının yaxşılaşmasına imkan yaradacaq.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də "Azərişıq" Şəmkir rayonuna səfəri çərçivəsində Açıq Səhmdar Cəmiyyətinin Şəmkir avtomat idarəetmə və nəzarət mərkəzinin, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Şəmkir filialının açılışında iştirak etmiş, Müdafiə Nazirliyinin Mobil Səhra Cərrahiyyə Hospitalının imkanları ilə tanış olmuşdur.

ŞAGİRDLƏRİN YÜKSƏK SƏVİYYƏDƏ TƏHSİL ALMALARI ÜÇÜN HƏRTƏRƏFLİ ŞƏRAİT YARADILIR

Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Xətai rayonundakı 257 nömrəli tam orta məktəbin yeni korpusunda yaradılan şəraitlə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yeni korpusda görülən işlər barədə dövlətimizin başçısına məlumat vermiş, bildirmişdir ki, məktəbin 1176 şagird yerlik mövcud korpusu 1974-cü ildən fəaliyyət göstərir. Məktəbdə 38 sinif, 3 informatika, 3 laboratoriya, idman və akt zalları, yeməkxana var. Bu təhsil ocağının mövcud korpusu Prezident İlham Əliyevin 2011-ci ildə imzaladığı Sərəncamla təsdiq edilmiş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın Tədbirlər Planına uyğun olaraq əsaslı təmir edilib. Burada şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hərtərəfli şərait yaradılıb, otaqlar zəruri dərs vəsaitləri ilə təchiz edilib.

Məktəbin yeni tikilən korpusu üçmərtəbəlidir. Foyedə ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təhsil sahəsinə göstərdikləri diqqəti əks etdirən fotostend quraşdırılıb.

Yeni korpus Prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı Sərəncamla təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın Tədbirlər Planında təhsil sahəsi üzrə nəzərdə tutulmuş tədbirlərin icrasına uyğun olaraq inşa edilib.

ləri, diaspor təşkilatları, habelə yerli qeyri-hökumət təşkilatları vasitəsilə yayılması bu istiqamətdə son dərəcə uğurlu layihələrdən biridir. Bukletlər toplusu "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" kitablarından ibarətdir.

Azərbaycan həqiqətlərini və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmağa xüsusi önəm verən Heydər Əliyev Fondu 2007-ci ildən başlayaraq hər il dünyanın bir sıra böyük şəhərlərində - Moskvada, Berlində, Strasburqda, Buxarestdə, Cenevrədə, Ankarada, İstanbulda, Parisdə, Vaşinqtonda, Nyu Yorkda, Varşavada, Londonda, Dubayda, Haaqada, Kiyevdə və Tbilisidə Xocalı soyqırımının ildönümünə həsr olunmuş aksiyalar keçirir. Xarici ölkələrdə təşkil olunan bu tədbirlərə müxtəlif qurumların, diplomatik missiyaların nümayəndələri, şəhər sakinləri, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri dəvət olunur. Anma mərasimlərində fondun hazırladığı "Xocalı soyqırımı" filmi ilə yanaşı, insanlığa qarşı törədilən cinayəti əks etdirən müxtəlif ekspozisiyalar nümayiş olunur.

Fondun dəstəyi və təşkilatçılığı ilə məktəblilər arasında keçirilən "Xocalı uşaqların gözü ilə" rəsm müsabiqəsinin, əl işlərinin, fotoşəkillərin dünyanın qabaqcıl ölkələrində keçirilən sərgisi beynəlxalq ictimaiyyətdə XX əsrin ən böyük faciəsi barədə dolğun təsəvvür formalaşdırır. Bu mərasimlərdə fondun nəşr etdirdiyi "Qarabağ həqiqətləri" toplusu və "Azərbaycana qarşı müharibə: Mədəni irsin hədəfə alınması" kitabları paylanır. Ölkə reallıqlarının internet şəbəkəsi vasitəsilə dünyaya yayılması və xalqın min illər boyu yaratdığı maddi-mənəvi dəyərlərin dünyaya tanıdılması məqsədilə 2005-ci ildə fond tərəfindən materialların həcminə, zənginliyinə və əhatəliliyinə, habelə istifadə olunmuş texnologiyalara görə ölkədə analoqu olmayan "Azərbaycan" internet portalı yaradılmışdır. İstifadəçilərinin sayı milyonlarla olan portalda Azərbaycanın bu günü, tarixi keçmişi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti ilə bağlı məlumatlar yerləşdirilmişdir.

Fondun vitse-prezidenti və Moskva nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın İslam Konfransı Təşkilatının Gənclər Təşkilatı ilə əməkdaşlıq çərçivəsində "Xocalıya ədalət!" kampaniyasına start verməsi də bəşər tarixində ən dəhşətli cinayətlərdən olan Xocalı soyqırımı ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədi daşıyır. Bu kampaniya İKT Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın 2008-ci il mayın 8-də irəli sürdüyü təşəbbüs əsasında həyata keçirilir. Tunisdə ISESCO-nun Baş Assambleyasının 10-cu sessiyasında imzalanmış protokol "Xocalıya ədalət!" Beynəlxalq Məlumat Təşviqat kampaniyasına dəstək verilməsini və dünya miqyasında təhsil, elm və mədəniyyət sahələrində birgə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Aksiyanın əsas məqsədi - beynəlxalq birliyi Xocalı faciəsi haqda ədalətli məlumatlandırmaqdır. Bu məqsədlə son illərdə dünyanın bir çox ölkələrində "Xocalıya ədalət!" veb-saytının təqdimetmə mərasimləri keçirilmişdir.

Ötən 12 ildə UNESCO səviyyəsində Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, habelə İçərişəhərin Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin və "Atəşgah"ın UNESCO-nun "Dünya irs siyahısı"na daxil edilməsi xanım Mehriban Əliyevanın Azərbaycanın milli mədəniyyətinin dünya miqyasında təbliği sahəsindəki fəaliyyətinin çox az qismidir. Azərbaycanın milli musiqisi olan muğamın, Novruz bayramının UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil olunması da bu fəaliyyətin nəticəsidir.

Abşeronda aşkar edilən arxeoloji tapıntıların qorunması məqsədilə fondun 2008-ci ildə Qala qəsəbəsində ilk Arxeoloji-Etnoqrafik Muzey Kompleksi yaratması da mühüm layihələrdəndir.

Heydər Əliyev Fondunun humanizmə və insanpərvərliyə əsaslanan fəaliyyəti səhiyyə sahəsində həyata keçirilən layihələrdə bir daha parlaq təcəssümünü tapır. Bu layihələr səhhətindəki problemlər üzündən əziyyət çəkən minlərlə insanı yenidən sağlam həyata qaytarmış, onlara həyat eşqi vermişdir. Bu baxımdan "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" layihələri cəmiyyətdə daha böyük diqqət və rəğbətlə qarşılanmışdır. Fond uşaqların müayinə və müalicəsi üçün geniş mərkəzin zəruriliyini nəzərə alaraq, 2009-cu ildə Bakı şəhərində Psixo-nevroloji Uşaq Mərkəzinin inşasına da nail olmuşdur. Ümumiyyətlə, Heydər Əliyev Fondu səhiyyə məsələləri ilə bağlı hər bir müraciəti diqqətlə araşdırır, onlara kömək göstərilməsi üçün tibb müəssisələri ilə sıx əlaqə qurur.

Bütün bunlar bir daha təsdiqləyir ki, fondun insan amilinin yüksəlişinə xidmət edən qlobal layihələri Heydər Əliyev ideyalarına sədaqətin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin Vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstək vermək istəyinin əməli təzahürüdür. Şübhə yoxdur ki, fond bu sahədəki fəaliyyətini uğurla davam etdirəcək, ulu öndər Heydər Əliyevin ölməz ideyalarına söykənərək milli tərəqqi və intibah prosesinə layiqli töhfələrini verəcəkdir.

İntizamlı vergi ödəyiciləri bir sıra imtiyazlar əldə edir

Vergilər Nazirliyinin qarşısına qoyulan vəzifələrdən biri də vergi öhdəliklərini tam və vaxtında yerinə yetirən, vergi qanunvericiliyinə əməl edən intizamlı vergi ödəyicilərinin seçilib fərqləndirilməsi və fəaliyyətlərinin təşviq olunmasıdır. Sentyabrın 15-dək Vergilər Nazirliyi tərəfindən intizamlı vergi ödəyicisi meyarlarına cavab verən vergi ödəyicilərinin siyahısı müəyyən olunaraq vergi ödəyicilərinə xidmət orqanlarına təqdim edilir. Vergi ödəyicilərinə xidmət orqanları isə sentyabrın 25-dək həmin siyahı üzrə intizamlı vergi ödəyicisi sertifikatları təqdim edilir. Sertifikatlar 3 il müddətinə verilir və sertifikata layiq görülən intizamlı vergi ödəyiciləri həmin müddətdə aşağıdakı imtiyazlardan istifadə hüququna malikdirlər:

• səyyar vergi yoxlamasının keçirilmə¬məsi;

• vergi orqanlarına edilmiş yazılı müraciətlərin 5 gün ərzində cavablandırılması;

• vergi ödəyicilərinə xidmət mərkəzlərində yalnız intizamlı vergi ödəyiciləri üçün nəzərdə tutulmuş xüsusi pəncərələrdən istifadə və ya növbə gözləmədən müraciət imkanı;

• Vergilər Nazirliyinin Çağrı Mərkəzində yalnız intizamlı vergi ödəyiciləri üçün nəzərdə tutulan xüsusi xətdən istifadə imkanı;

• vergi orqanının kütləvi informasiya vasitələrində, o cümlədən rəsmi elektron səhifələrində vergi ödəyicisinin intizamlı vergi ödəyiciləri siyahısında olması barədə məlumatın yerləşdirilməsi;

• vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin onların iştirakı ilə müzakirə edilməsi imkanı veriləcək, ünvanlı səyyar xidmətlər göstəriləcək.

Əsas hədəf vergi ödəyicilərinə keyfiyyətli xidmət göstərməkdir

Vergilər Nazirliyi elektron xidmətlərin təkmilləşdirilməsi prosesini mütəmadi olaraq davam etdirir və son bir neçə ildə bu daha intensiv xarakter alıb.Hazırda Vergilər Nazirliyi vergi ödəyicilərinə 63 növ elektron xidmət göstərir və bu xidmətlərin növləri və əhatə dairəsi ilbəil genişlənir. Vergi ödəyicilərinin və vergi orqanı əməkdaşlarının bəyannamə və ərizə formalarının tərtibatına və yenidən tərtibatına sərf etdiyi vaxtın azaldılması, hesabat və ərizələrin vaxtında təqdim edilməsi, vergi ödəyicilərinin «ASAN imza»dan istifadələrinin stimullaşdırılması və s. istiqamətlərdə aparılan işlərin nəticəsi olaraq, nazirliyin təqdim etdiyi elektron xidmətlərdən istifadə edənlərin sayı nəzərəçarpacaq dərəcədə arıb.

Vergi sistemində həyata keçirilən yeniliklərlə bağlı vergi ödəyicilərinin maarifləndirilməsində rəsmi internet səhifəsi əvəzsiz rol oynayır.Bu ilin birinci yarısında rəsmi internet səhifəsinə daxil olan istifadəçilərin sayı 2.756.106-ya çatmışdır. Nazirliyin rəsmi internet səhifəsindəki «Sual-cavab» bölməsi vasitəsilə 1707 sual cavablandırılmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 587 sual və ya 1,5 dəfə çoxdur.

Vergi ödəyiciləri öz vergi öhdəliklərini vaxta qənaət edərək internet üzərindən nağdsız qaydada və ya yaxınlıqda olan ödəniş terminalı vasitəsilə yerinə yetirə bilmələri məqsədilə nazirliyin rəsmi internet səhifəsində «Vergiləri necə ödəyək» adlı bölmədən ətraflı məlumatlar almaq imkanına malikdirlər.Burada vergilərin ödənilməsi üçün yaradılan xidmətlərdən istifadə qaydaları, prosesin ardıcıllığı həm yazılı, həm də videotəsvir formasında yerləşdirilmişdir.Rəsmi internet saytı vasitəsilə vergi ödəyicilərinə yuxarı vergi orqanına şikayət etmək, habelə vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi barədə təkliflər təqdim etmək mümkündür.

Sahibkarların maarifləndirilməsi və məlumatlandırılması məqsədilə biznesin qurulması prosesini mərhələli şəkildə və əyani misallarla əks etdirən «Biznesə necə başlamalı?» maarifləndirici praktiki vəsait və müvafiq baner hazırlanaraq internet səhifəsində yerləşdirilmişdir.

Sahibkarlara 180-dən çox investisiya təşviqi sənədi verilib

İndiyədək 169 sahibkarlıq subyektinə 182 investisiya təşviqi sənədi təqdim edilib.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən Trend-ə verilən məlumatal görə, investisiya təşviqi sənədi verilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 1,6 milyard manat investisiya yatırılması, 11 mindən çox yeni iş yerlərinin açılması nəzərdə tutulur.

İnvestisiya təşviqi sənədləri hesabına reallaşdırılacaq layihələrin 1-i Bakı şəhərində, 66-sı Bakıətrafı qəsəbələrdə və Abşeron rayonunda, 115-i isə digər iqtisadi rayonlarda həyata keçiriləcək. Verilmiş 182 investisiya təşviqi sənədinin 70-i kənd təsərrüfatı, 112-si isə sənaye yönümlü layihələrdir. Ən çox investisiya təşviqi sənədi intensiv bağçılıq, bostançılıq və çaycılıq, qida məhsullarının istehsalı, rezin və plastmas məmulatların istehsalı sahələrində reallaşdırılan layihələrə verilib.

Eyni zamanda, investisiya təşviqi sənədləri əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların güzəştli şərtlərlə idxalı üçün 169 sahibkarlıq subyektinə 744 təsdiqedici sənəd təqdim edilib. Təsdiqedici sənədlər əsasında sahibkarlıq subyektləri tərəfindən əldə olunan ümumi güzəştin dəyəri 30,5 milyon ABŞ dollarıdır.

Qeyd edək ki, biznes mühitinin yaxşılaşdırılması, yeni müəssisələrin yaradılmasının dəstəklənməsi, sənaye istehsalının artırılması məqsədilə Azərbaycan Prezidentinin müvafiq fərmanına uyğun olaraq investisiya təşviqi mexanizmi yaradılıb.

İnvestisiya təşviqi sənədi Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" qanunda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. Bu güzəştlərə 7 il müddətinə mənfəət və ya gəlir vergisinin 50%-dən azadolma, torpaq və əmlak vergisindən tam azadolma, layihə çərçivəsində xaricdən idxal olunan texnika, texnoloji avadanlıq və qurğunun gömrük rüsumu və ƏDV-dən tam azadolması aiddir.

"Silkway Bank" kapitalını artırır

Maliyyə Bazarlarına Nəzarət Palatası "Silkway Bank" ASC-nin yeni səhm emissiyasını dövlət qeydiyyatına alıb.

Bu barədə bankdan bildirilib.

Məlumata görə, emissiya "Silkway Bank"ın dövriyyədə olan 679 230 ədəd səhminin nominal dəyərinin 149,5 manatdan 154 manata çatdırılmasını nəzərdə tutur. Son nəticədə bankın nizamnamə kapitalı 3 056 530 manat və yaxud 3,01% artaraq 101 544 885 manatdan 104 601 420 manata çatacaq. Kapital artımı ötən illərdə əldə edilmiş mənfəət hesabına həyata keçiriləcək.

Xatırladaq ki, "Silkway Bank" 2008-ci ildə yaradılıb, 1993-cü ildən fəaliyyət göstərən "Azal Bank"ın hüquqi varisidir.

SOCAR və Qazprom hansı məsələləri müzakirə edib?

Bazar ertəsi Sankt-Peterburqda "Qazprom "Publik Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Aleksey Miller və SOCAR prezidenti Rövnəq Abdullayev arasında işgüzar görüş keçirilib. Bu barədə "Qazprom"un mətbuat xidməti məlumat verib.

"Görüşdə təbii qazın Azərbaycana tədarükü ilə bağlı məsələlər müzakirə olunub", - məlumatda deyilir.

Danışıqların təfərrüatları barədə məlumat verilmir.

Öncə SOCAR prezidenti Rövnəq Abdullayevə istinadən məlumat verilib ki, ARDNŞ "Qazprom"dan illik 3-5 mlrd. kubmetr qaz almağı planlaşdırır. Hətta bununla bağlı Rusiya tərəfinə təkliflər təqdim edilib.

SOCAR-ın planlarına görə, idxal olunan Rusiya qazının əsas həcmi maksimal yüklənmə səviyyəsini yoxlamaq məqsədilə Azərbaycanda yeraltı qaz anbarlarına doldurulacaq.

"Xalq Bank"ın nizamnamə kapitalı 225 milyon manatı keçəcək

Maliyyə Bazarlarına Nəzarət Palatası "Xalq Bank" ASC-nin yeni səhm emissiyasını dövlət qeydiyyatına alıb.

Bu barədə bankdan bildirilib.

Məlumata görə, emissiya "Xalq Bank"ın dövriyyədə olan 3630300 ədəd səhminin nominal dəyərinin 58,3 manatdan 62 manata çatdırılmasını nəzərdə tutur. Son nəticədə bankın nizamnamə kapitalı 13 432 110 manat və yaxud 6,35% artaraq 211 646 490 manatdan 225 078 060 manata çatacaq. Kapital artımı ötən illərdə əldə edilmiş mənfəət hesabına həyata keçiriləcək.

Xatırladaq ki, "Xalq Bank" 2004-cü ildə yaradılıb. Bankın səhmlərinin 50%-i "İdeal Business Co." MMC-yə ("Xalq Sığorta" ASC-nin 50%-lik səhmdarı), 33,85%-i "Euro Standard" MMC-yə ("Xalq Sığorta" ASC-nin 50%-lik səhmdarı), 16,15%-i isə "AMAL Invest Group" MMC-yə məxsusdur.

Manat və dollarla istiqraz buraxılacaq

Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) "Para" ASC bank olmayan kredit təşkilatının (BOKT) istiqraz emissiyalarını dövlət qeydiyyatına alıb.

Bu barədə BOKT-un İdarə Heyətinin sədr müavini Rəcəb Hüseynov məlumat verib.

Onun sözlərinə görə, emissiyalar hər birinin nominal dəyəri 1 000 manat olan 545 ədəd istiqrazın (545 min manatlıq) və hər birinin nominal dəyəri 1000 ABŞ dolları olan 150 ədəd istiqrazın (150 min manatlıq və yaxud təxminən 255 min manat) dövriyyəyə buraxılmasını nəzərdə tutur. Qiymətli kağızlar qapalı üsulla Bakı Fond Birjasında yerləşdiriləcək və onları fiziki şəxslər alacaq. Xatırladaq ki, "Para" BOKT ötən il lisenziyası ləğv edilmiş "Parabank" ASC-nin bazasında bu il yaradılıb. Onun nizamnamə kapitalı 38,887 mln. manatdır. MBNP kredit təşkilatına lisenziyanı bu il martın 30-da verib və bununla da ilk dəfə olaraq Azərbaycanda bank BOKT-a çevrilib.

AtaBank Mastercard debet və kredit kart sahiblərinə 15% endirim təklif edir!

"AtaBank" ASC ilə "MasterCard" beynəlxalq ödəniş sisteminin yeni birgə reklam aksiyasına start verilib. AtaBank Mastercard və ya Maestro debit və kredit kart sahibləri "MyDutyFree" saytı (www.mydutyfree.net) və ya "App Store"/"Play Store"dan yüklənən tətbiq vasitəsilə əvvəlcədən sifariş etməklə Heydər Əliyev Beynəlxalq Hava Limanında yerləşən "Duty Free" mağazalarında mallara 15% endirim əldə edə bilərlər.

Endirimdən faydalanmaq üçün aşağıdakı qaydalara əməl edilməlidir:

• "MyDutyFree" saytı və ya tətbiq üzərindən seçdiyiniz məhsulu əvvəlcədən sifariş edirsiniz

• Sifarişi edərkən müvafiq xanaya "MastercardBaku" promokodunu daxil edirsiniz

• Uçuş tarixinizdə Heydər Əliyev Beynəlxalq Hava Limanı, 1-ci Terminalda yerləşən xüsusi "MyDutyFree" kassalarında istənilən növ "AtaBank"-ın "Mastercard"/"Maestro" plastik kartları ilə ödənişi həyata keçirisiniz.

Məhsulun tam dəyəri "AtaBank"-ın "Mastercard"/"Maestro" plastik kartları ilə ödənilməlidir.

Dünya maliyyə bazarları ilə bağlı həftəlik ANALİZ

InvestAZ İnvestisiya şirkətinin analitikləri bu həftə üzrə dünya maliyyə bazarlarında son vəziyyət və qısa müddət ərzində gözlənilənlərlə bağlı məlumat verib.

EUR

Maliyyə bazarlarında EUR/USD məzənnəsi 1.17-1.18$ aralığında ticarət olunmaqdadır. Təhlillərə əsasən, qiymət 1.1815$-ın altında qaldıqca, eniş dalğasının 1.1565$-a kimi sürətlənə biləcəyi proqnozları aktuallığını qorumaqdadır.

24-26 avqust aralığında isə Djekson Xoul simpoziumunun baş tutması gözlənilir. Bu simpozium 1978-ci ildən etibarən hər il keçirilir və dünya investorlarının diqqət mərkəzindədir. Simpoziumda maliyyə dünyasının aparıcı şəxslərinin - dünya mərkəzi bank rəhbərlərinin, maliyyə nazirlərinin, böyük şirkət və kommersiya bankları rəhbərlərinin iştirakı nəzərdə tutulur. Cümə günü Amerika Mərkəzi Bankının (FED) rəhbəri Janet Yellenin və Avropa Mərkəzi Bankının rəhbəri Mario Draqinin çıxışları da əsas məqamlardan hesab olunur.

GBP

Funt/Dollar məzənnəsi keçən həftənin ilk günlərində 1.5% ucuzlaşdıqdan sonra 1.28-1.29$ aralığında korreksiya etməkdədir. Lakin qiymətin 1.30$-ın altında qaldıqca, 1.2729$-a kimi də ucuzlaşa biləcəyi proqnozlaşdırılır. Eyni zamanda, cümə axşamı Bakı vaxtı ilə saat 12:30-da açıqlanacaq, İngiltərənin ikinci rüb üzrə iqtisadi inkişaf səviyyəsi ilə bağlı önəmli statistik məlumatların da məzənnəyə təsir edəcəyi gözlənilir.

TRY

Türkiyə maliyyə bazarlarında Türk lirəsi qiymətinin də 3.53TL və 3.55TL-ə kimi ucuzlaşa biləcəyi proqnozlaşdırılır. Bununla yanaşı, bu həftə baş tutacaq Djekson Xoul simpoziumu fonunda açıqlamalar da Türkiyə maliyyə bazarlarında güclü dalğalanmalara səbəb olacaqdır.

OIL

Enerji bazarlarında Avropanın Brent markalı neftinin bir barrel qiyməti 52$-ın üzərində ticarət edilməkdədir. Gələcək günlər ərzində qiymətin 53.40$-a kimi dəyər qazana biləcəyi də proqnozlaşdırılır. ABŞ-da neft ehtiyatlarının avqust ayında da azalması dinamikasının güclənməsi neft qiymətlərinin bahalaşmasına təsir edən amillərdəndir.

GOLD

Əlvan metallar bazarlarında isə qızılın bir unsiya üzrə qiyməti keçən həftənin cümə günü sürətlə ucuzlaşmağa başlayıb. Təhlillərə əsasən, maliyyə bazarlarında qızıl qiymətləri 1293$-ın (41.5 $/qram) altında qaldıqca, əlavə olaraq 1272$-a (40.8 $/qram) kimi də ucuzlaşa bilər.

İnvestisiya ilə bağlı suallarınızı *1234 telefon nömrəsi və www.investaz.az veb saytı vasitəsilə bizə ünvanlaya bilərsiniz.

"İnvest-AZ İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən tənzimlənir. Şirkət 09.01.2016-cı il tarixli 087986 saylı lisenziyası əsasında broker, anderraytinq (diler), marja ticarəti (forex), fərdi investorların portfelinin idarə edilməsi, market meykerlik və sair investisiya xidmətləri üzrə fəaliyyət göstərməkdədir.

Risk bildirişi:

Yuxarıda göstərilən məlumatlar tamamilə tövsiyə xarakterlidir. Bu fəaliyyət üzrə həyata keçirilən əməliyyatlar yüksək risk qrupuna daxildir və "İnvest-AZ İnvestisiya Şirkəti" QSC yuxarıda göstərilən məlumatlar əsas götürülməklə, həyata keçirilən investisiya əməliyyatları üzrə heç bir öhdəlik daşımır.

AtaSığorta yeni nümayəndəlik və satış ofisini istifadəyə verdi

"AtaSığorta" ASC yeni "Zaqatala" nümayəndəliyini və Bərdə şəhərində satış ofisini istifadəyə vermişdir. Yeni açılmış "Zaqatala" Nümayəndəliyi Zaqatala şəhəri, Nizami küçəsi 36 B, "Bərdə" satış ofisi isə Bərdə şəhəri, H.Əliyev prospektində fəaliyyət göstərməyə başlamışdır. Regionlarda xidmət şəbəkəsinin genişlənməsi "AtaSığorta" ASC-nin əsas inkişaf prioritetlərindən biridir.

Nümayəndəlik və satış ofisi Zaqatala, Bərdə və yaxınlıqda yerləşən yaşayış məntəqələrində yaşayan əhalinin bütün sığorta xidmətlərindən rahat şəkildə faydalanmasını, baş verən sığorta hadisələri zamanı isə müştərilərə peşəkar və operativ xidmətin göstərilməsini təmin edəcəkdir.

Gələn il daha bir Sənaye Məhəlləsi fəaliyyətə başlayacaq

Masallı Sənaye Məhəlləsində həyata keçirilən tikinti işlərinin 2018-ci ilin birinci rübündə başa çatdırılması nəzərdə tutulur.

İqtisadiyyat Nazirliyindən Trend-ə verilən məlumata görə, tikinti işlərinin qrafikə uyğun və fasiləsiz aparılması məqsədilə Masallı Sənaye Məhəlləsində su, elektrik təminatı kimi müvəqqəti infrastruktur yaradılıb, zəruri texnika iş prosesinə cəlb edilib, mal-materialların saxlanması üçün müvəqqəti anbarlar quraşdırılıb, işçilərin normal iş şəraitinin təmin olunması üçün yeməkxana tikilib, lazımı şərait yaradılıb. Ümumiyyətlə, Masallı Sənaye Məhəlləsində həyata keçirilən tikinti işlərinə 200 nəfərə yaxın işçinin cəlb olunması nəzərdə tutulur ki, bunların əksəriyyəti yerli sakinlər olacaq.

1-ci mərhələdə Masallı Sənaye Məhəlləsində ümumi sahəsi 7006 m² olan 3 istehsalat korpusu, sahəsi 1251 m² olan 2 mərtəbəli inzibati bina və digər köməkçi sahələr tikiləcək, məhəllənin bütün ərazisində zəruri infrastruktur (elektrik, qaz, su və rabitə) yaradılacaq.

Masallı Sənaye Məhəlləsinə sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq sahibkarlar tərəfindən ümumi dəyəri 33 milyon manatdan çox olan 33 layihə təklifi "Azərbaycan İnvestisiya Şirkəti" ASC-yə təqdim olunub. Bu layihələr əsasən mebel istehsalı, avtomobil təmiri, alüminium və plastik qapı-pəncərə istehsalı, müxtəlif növ tikinti materiallarının istehsalı sahələrini əhatə edir.

4G-dəstəkli LG FLEX 2 smartfonu indi YARI QİYMƏTƏ

Azercell Telekom MMC 4,5 milyonluq abunəçi ailəsi üçün sərfəli smartfon kampaniyalarını davam etdirir. İndi Azercell ailəsinin üzvləri 17.08.2017-ci il tarixindən etibarən 4G-dəstəkli LG FLEX 2 smartfonunu inanılmaz sərfəli qiymətlərlə əldə edə bilərlər. Belə ki, yeni smartfon kampaniyası çərçivəsində abunəçilər LG FLEX 2 telefonuna 50% ENDİRİMLƏ aylıq cəmi 45AZN-dən başlayan ödənişlə sahib olmaq imkanı qazanırlar. Yeni telefonla yanaşı, abunəçi LG W100 qol saatı HƏDİYYƏ, 12 aylıq 5GB, 10GB və ya Limitsiz (50GB) Mobil İnternet paketlərindən faydalanmaq şansı əldə edir. Kampaniyaya qoşulmaq üçün abunəçilər Azercell Müştəri Xidmətləri Ofislərinə yaxınlaşıb mövcud təkliflərdən birini seçə bilərlər. Azercell-in bu yay abunəçilərinə təqdim etdiyi kampaniyalara qoşulun, yeni smartfon, mobil internet və sərfəli danışıq imkanı qazanın.

Uşaq paralimpiyaçılarımız boccia üzrə beynəlxalq yarışda

Azercell Telekom MMC-nin dəstəyi ilə yaradılan Uşaq Paralimpiya Komitəsində müxtəlif idman yarışları üzrə beynəlxalq turnirlərdə iştirak edən və kifayət qədər qələbə qazanan paralimpiyaçılarımız daha bir yarışa hazırlaşırlar. Bu dəfə boccia idman növü üzrə iki idmançımız ilk dəfə olaraq beynəlxalq turnirdə Azərbaycanı təmsil edəcək. 4-9 sentyabr tarixlərində Rusiyanın Moskva şəhərində keçiriləcək turnirdə İngiltərə və Polşa kimi favorit sayılan ölkələr də iştirak edəcək.

Azercell Uşaq Paralimpiya Komitəsinin fəaliyyətini dəstəkləyərək yeniyetmələrin cəmiyyətə inteqrasiyasını və idmana olan həvəsini artırmağa çalışır. Şirkətin dəstəyi ilə 2014-cü ildən fəaliyyət göstərən Uşaq Paralimpiya Komitəsi ölkəmizin müxtəlif ərazilərindən uşaq və gəncləri öz ətrafına toplayıb, onlara idmanla məşğul olmaq, müxtəlif beynəlxalq yarışlarda Azərbaycanı təmsil etmək imkanı verib.

Azercell Azərbaycanda fəaliyyət göstərdiyi 21 il ərzində kimsəsiz, müxtəlif problemləri olan uşaqların hərtərəfli dəstəklənməsi, sağlamlığının qorunması, onların keyfiyyətli təhsil alması, sağlam həyat tərzi keçirməsi üçün çalışıb və bundan sonra da öz diqqət və qayğısını əsirgəməyəcək.

Azərbaycan əhalisi 7 ayda məhsul və xidmətlərə 24 milyard manat xərcləyib

2017-ci ilin yanvar-iyul aylarında Azərbaycanda istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 24,2 milyard manat olmaqla 2016-cı ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 1,5 faiz artıb.

Bu barədə Trend-ə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri əvvəlki ilin yanvar-iyul aylarının səviyyəsini real ifadədə 1,7 faiz üstələyərək 23,2 milyard manata bərabər olub, 50,7 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşıb.

"AtaTravel" aksiya keçirir

21 avqust tarixindən etibarən "AtaTravel" MMC-dən bilet və ya tur alan müştərilərə "Paris Gallery" mağazasından hədiyyə kuponu təqdim olunacaq. "AtaTravel" MMC müştərilərə yay mövsümündə ölkə daxilində və xaricində maraqlı turlar təklif edir.

"AtaTravel" MMC-nin baş direktoru Vüsal Əliyev qeyd etdi ki, şirkət ənənəvi turlarla yanaşı yay məzuniyyətləri dövrünü nəzərə alaraq, Azərbaycanın regionları üzrə gəzməli yerlərə qısamüddətli turlar hazırlamışdır. Yeni maraqlı marşrutlar işlənib hazırlanmış, tur iştirakçıları yüksək servis xidməti və rahat şəraitlə təmin olunurlar. "AtaTravel" MMC Azərbaycanda daxili turizmin inkişafı üçün var qüvvəsini qoyaraq bütün imkanlardan istifadə edir.

Maşınqayırmanın inkişafına dair 12 milyonluq layihə

Bünyad Sərdarov adına Maşınqayırma Zavodu Azərbaycanda maşınqayırmanın inkişafına dair yeni investisiya layihəsi hazırlayır. Bu barədə hökumətdən bildiriblər.

"Layihəni B.Sərdarov adına Maşınqayırma Zavodunun ərazisində reallaşdırmaq nəzərdə tutulur. Layihənin məqsədi zavodun buraxdığı məhsulların keyfiyyətinin və müəssisənin özünün rəqabətə davamlılığının artırılmasıdır. Bununla əlaqədar layihə çərçivəsində zavodun istehsal sahələrinin təmiri, müasir avadanlığın alışı və istehsalat sahəsində əsas məhsul növləri üçün Amerika Neft İnstitutunun (API) müvafiq monoqramlarının əldə olunması nəzərdə tutulur", - hökumətdən bildiriblər.

Layihənin ümumi dəyəri 12 mln. manat məbləğində qiymətləndirilir. Bunun 2 mln. manatı fərdi vəsait, 10 mln. manatı kredit vəsaitidir.

Layihə 5 il müddətinə reallaşdırılacaq, özünü ödəmə müddəti 4,7 ildir.

"Bu investisiya layihəsinin reallaşdırılması yerli maşınqayırmanın inkişafı, daxili və xarici bazarların yüksək keyfiyyətli neft maşınları ilə təminatı və Azərbaycanın ixrac potensialının artmasına imkan yaradacaq", - hökumətdən qeyd ediblər.

Azərbaycanda mismar, elektrod və kəsmə daşları istehsal ediləcək

Xəbər verdiyimiz kimi, Masallı Sənaye Məhəlləsinə sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq sahibkarlar tərəfindən ümumi dəyəri 33 milyon manatdan çox olan 33 layihə təklifi "Azərbaycan İnvestisiya Şirkəti" ASC-yə təqdim olunub. Sahibkar Fikrət Babayev deyib: "Masallı rayonunda sənaye parkının açılması bizə o üstünlükləri verir ki, biz primitiv, kustar üsulla ev şəraitində işləməkdən azad olacağıq. Mən Azərbaycanda analoqu olmayan gəmi kanatlarının istehsalına başlamaq istəyirəm".

Sahibkar Fəxrəddin Baxışov bildirib: "Biz burada yeni bir müəssisə yaradırıq. Bu müəssisədə tikinti sahəsində üç profildə istehsal müəyyənləşdirilir - elektrod, kəsmə daşları və mismar. Tikintidə işlədilən mismarlar Azərbaycanda istehsal olunmur, xaricdən gətirilir. Biz bu məqsədlə Sənaye Məhəlləsinə müraciət etmişik".

Qeyd edək ki, bu Masallı Sənaye Məhəlləsində həyata keçiriləcək layihələr əsasən mebel istehsalı, avtomobil təmiri, alüminium və plastik qapı-pəncərə istehsalı, müxtəlif növ tikinti materiallarının istehsalı sahələrini əhatə edir.

Artıq Masallı Sənaye Məhəlləsində ərazinin düzənlənməsi işləri başa çatdırılıb və hazırda binaların təməlinin qoyulması və kommunikasiya xətlərinin çəkilməsi işləri aparılır.

Bakıda kommersiya obyektlərinin icarə haqqı qalxıb

Əmlak bazarına icarə məqsədi ilə təklif olunan kommersiya obyektlərinin orta icarə qiymətləri 2017-ci ilin II rübü üzrə 7.83 dollar/kv.m qeydə alınıb ki, bu da öz növbəsində 2017-ci ilin I rübü ilə müqayisədə 1.66% artıb.

Son rüb ərzində kommersiya obyektlərinin seqmentləri arasında ən çox icarə qiymət dəyişikliyinə "zirzəmi" təyinatlı obyektlər məruz qalıb. Bu seqment üzrə 1 kv.m-in orta qiyməti 3.54% artaraq 3.39 dollar/kv.m təşkil edib.

Digər seqmentlərə gəldikdə isə "xidmət" təyinatlı obyektlərdə icarə qiymətləri 2.63% artaraq 6.47 dollar/kv.m, "ofis" təyinatlı obyektlərdə qiymətlər 2.81% artaraq 6.75 dollar/kv.m, "sənaye" təyinatlı obyektlərdə qiymətlər 2.22% artaraq 4.5 dollar/kv.m, "boş yer" və "mağaza" təyinatlı obyektlərdə isə icarə qiymətləri müvafiq olaraq 1.52% və 0.50% artaraq ayrı-ayrılıqda 7.87 dollar/kv.m və 18.02 dollar/kv.m bəndində qərarlaşıb. Yerləşməsindən, sahəsinin ölçüsündən və təmirliyindən asılı olaraq ən baha qiymətə icarəyə təklif olunan "ofis" təyinatlı obyektlər əsasən Bakı şəhərinin Səbail, Nərimanov, Nəsimi və Yasamal rayonlarında qeydə alınmışdır. Bu rayonlarda ofislərin 1 kv.m-nin icarə qiymətləri müvafiq olaraq 8.7 dollar/kv.m, 6.9 dollar/kv.m, 7.3 dollar/kv.m və 6.9 dollar/kv.m təşkil edib.

Şəhər üzrə bahalı mağaza təyinatlı yerlər ofis təyinatlı yerlərdə olduğu kimi Səbail və Nəsimi rayonlarında yerləşir, müvafiq olaraq 20.4 dollar/kv.m 17.1 dollar/kv.m. Nisbətən ucuz qiymətə olan mağazalar isə Yasamal və Nərimanov rayonlarında qeydə alınıb, hər bir kvadrat metrinə görə müvafiq olaraq 16.3dollar/kv.m və 16.2dollar/kv.m. Xidmət və boş yer təyinatlı kommersiya sahələrinə gəldikdə isə ən bahalılar Səbail və Nəsimi rayonlarında, ən ucuzları isə Abşeron, Xəzər və Qaradağ rayonlarında yerləşir.

"Şəmkir Aqroparkı"nda beynəlxalq konfrans keçirilib

Şəmkir rayonunda "Şəmkir Aqroparkı"n Logistika Mərkəzinin təqdimatına və Mərkəzlə tanışlığa həsr olunmuş beynəlxalq konfrans keçirilib. Konfransda müvafiq dövlət qurumları, ali təhsil və elmi tədqiqat müəssisələri, ətraf rayonları təmsil edən fermerlər, aqrar sahədə ixtisaslaşmış aparıcı yerli və xarici şirkətlər iştirak ediblər. Tədbirdə kənd təsərrüfatı sahəsində həyata keçirilən dövlət siyasəti, kənd təsərrüfatı məhsullarının istehsalı və emalının stimullaşdırılması, ixracın düzgün formalaşdırılması və Azərbaycan kəndlilərinin istehsal etdiyi məhsulların ölkə hüdudlarından kənara çıxarılması, rəqabət qabiliyyətli və ixracyönümlü kənd təsərrüfatı mallarının istehsalına dövlət dəstəyi məsələləri haqda çıxışlar dinlənilib.

Bildirilib ki, dünya iqtisadiyyatında davam edən neqativ proseslərdən qaynaqlanan amillərin Azərbaycan iqtisadiyyatına təsirinə baxmayaraq, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ötən illərdə ölkədə yaradılmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı, eləcə də mövcud çağırışların tələblərinə uyğun çevik islahatlar sayəsində ölkə iqtisadiyyatı öz dayanıqlılığını möhkəmləndirir. Ölkə iqtisadiyyatının əsas prioritetlərindən olan qeyri-neft sektorunun inkişafında son illər ərzində mühüm nailiyyətlər əldə olunub, iqtisadiyyatın diversifikasiyası qeyri-neft sektorunun inkişafını təmin etməklə, onun ümumi daxili məhsulda xüsusi çəkisinin əhəmiyyətli artımına səbəb olub. Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, qeyri-neft sektorunun mühüm sahəsi olan kənd təsərrüfatının inkişafı ilə bağlı strateji hədəflərin müəyyən edilməsi və institusional dəyişikliklərin həyata keçirilməsi, dövlət dəstəyinin gücləndirilməsi bu sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin güclü təməlini qoyub. Belə ki, kənd təsərrüfatında məhsuldarlığın artırılmasına nail olmaq üçün fermerlərə dövlət tərəfindən dəstək verilir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" aqrar sektorda istehsalın artırılması, kənd təsərrüfatı istehsalçılarının qarşılaşdığı problemlərin həllinə nail olunması, bu sahənin ixrac imkanlarının gücləndirilməsi üçün dövlət tərəfindən ciddi dəstək verilməsini nəzərdə tutur. Bu dəstəyin mühüm formalarından biri də respublikamızın ayrı-ayrı bölgələrində aqroparkların yaradılması prosesinin sürətləndirilməsidir.

Konfransda "Şəmkir Aqroparkı" ilə bağlı təqdimat nümayiş etdirilib. Sonra konfrans iştirakçıları təməli 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə qoyulan «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzində yaradılmış şərait və fəaliyyət istiqamətləri ilə tanış olublar. Qonaqların diqqətinə çatdırılıb ki, Şəmkir rayonunda yaradılan aqroparkda respublikada ilk dəfə müasir istixana kompleksi, şitillik, tinglik və intensiv bağçılıq təsərrüfatları, meyvə və tərəvəz emalı zavodları, tara istehsalı fabriki, logistika və aqroservis mərkəzi, soyuducu anbar, satış mərkəzləri, avtopark, elmi araşdırma və innovasiyalar mərkəzi, otel və müxtəlif infrastruktur müəssisələri inşa olunacaq. Aqroparkda müasir texnologiyaların tətbiqi ilə istehsal, emal, logistika – məhsulları saxlama, çeşidləmə, qablaşdırma, markalama, daşınma, daxili və xarici bazarlarda satış, yaşıl marketlər və fermer mağazaları üzrə fəaliyyətlərin vahid ərazidə cəmləşməsi nəticəsində rəqabətqabiliyyətli kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalına şərait yaradılacaq.

Mütəxəssislərin yekdil qənaətinə görə, regionlarda belə arqoparkların yaradılması, bu çərçivədə müxtəlif beynəlxalq layihələrin həyata keçirilməsi ölkənin ixrac potensialının artırılmasında və coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kiçik və orta fermerlərin innovativ qabiliyyətinin artırılmasında, proqressiv metodların geniş tətbiqində, istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiya münasibətlərinin formalaşmasında, yüksək məhsuldarlığın əldə olunmasında, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynayacaq. Aqroparkların yaradılması və inkişafı fermerlərə məsləhət, texniki, aqroservis və logistika xidmətlərinin göstərilməsinə, toxum, şitil, ting, dərman və gübrə ilə təmin olunmasına, kiçik fərdi istehsalçı səviyyəsindən genişmiqyaslı aqrar sənaye istehsalına keçidin, xarici bazarlara sabit və etibarlı çıxışın təmin edilməsinə şərait yaradacaq.

"Şəmkir Aqroparkı" bu baxımdan Azərbaycanın qərb regionunun ixrac imkanlarının genişləndirilməsində mühüm rol oynayacaq. Aqropark ölkənin ixrac əməliyyatları ilə məşğul olan aparıcı logistik mərkəzləri ilə əməkdaşlıq edəcək, yerli məhsulların "Made in Azerbaijan" brendi ilə ixracını və xaricdə yerləşən əsas istehlakçılara çatdırılmasını, eləcə də daxili bazara çıxarılmasını təmin edəcək.

Beynəlxalq konfrans tədbirdə iştirak edən yerli və xarici şirkətlərin məhsullarının sərgi-nümayişi ilə davam edib. «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzinin ərazisində təşkil olunmuş kənd təsərrüfatı sərgisində beynəlxalq standartlara cavab verən istixana avadanlıqları, gübrə (torpaq və suda həll olunan) və dərmanlar, pestisidlər, şitil, ting və toxumlar, suvarma sistemləri, kənd təsərrüfatı sahəsində istifadə olunan traktor, maşın, mexanizm və bu kimi digər texnika nümayiş etdirilib. Sərgiyə Azərbaycan, Türkiyə, İtaliya, Hollandiya, Çin və digər ölkələrdən kənd təsərrüfatı üzrə məhsul və avadanlıqların istehsalçıları və distributorları qatılıblar.



Sonra Rusiya Federasiyasının "Evroxim" şirkəti tərəfindən Gəncə-Qazax iqtisadi zonasına həsr olunmuş "Məhsul gübrənin törəməsidir" adlı beynəlxalq seminar keçirilib. Seminarda aqrar sektorun qarşısında məsələlərlə bağlı geniş müzakirələr aparılıb. Bildirilib ki, bitkiçilik məhsullarının istehsalının artırılması məqsədilə adıçəkilən sahənin gübrəyə və bitki mühafizəsi vasitələrinə olan tələbatının ödənilməsi üçün bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Respublikanın müxtəlif bölgələrində gübrə və bitki mühafizəsi vasitələrinin topdan və pərakəndə satış şəbəkələrinin yaradılması, aqrokimyəvi, bitki mühafizəsi, karantin və toxumçuluq xidmətlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi və fəaliyyətinin gücləndirilməsi istiqamətində zəruri addımlar atılır. Konfrans "AzAqroMarket" MMC-nin texniki dəstəyi ilə keçirilib.

Əlavə məlumat: "Şəmkir Aqroparkı" barədə arayış

Ölkəmizdə aqroparkların və onların tərkibinə daxil olan müxtəlif mərkəzlərin tikintisi və məhsul bazalarının yaradılması istiqamətində daha bir addım kimi ölkə Prezidenti İlham Əliyevin xeyir-duası və iştirakı ilə 2014-cü ildə Şəmkir rayonunda "Şəmkir Aqroparkı"nın Logistika Mərkəzinin təməli qoyulub. Aqroparka 8604 hektar, o cümlədən, Könüllü kənd ərazisində 604 hektar, "Ceyrançöl" massivində isə 8000 hektar müvafiq torpaq sahəsi ayrılıb.

Aqroparkın "Ceyrançöl" massivi ümumilikdə 4.600 hektara çatdırılması planlaşdırılır. Bu ilin payızında 3.000 hektar pivolatı sahəyə taxıl əkilməsi və 15.000 ton məhsul istehsalı, 2018-cil ildə isə 3.000 hektar qarğıdalı əkilməsi və 30.000 ton məhsul götürülməsi nəzərdə tutulur.

İntensiv bağçılığın yaradılması məqsədilə isə 2.400 hektarda damlama suvarma sistemlərinin quraşdırılması layihələndirilib. Nəticədə, gələcəkdə 36.000 ton məhsul istehsal olunacaq. Pivotaltı sahəyə gələcəkdə növbəli əkin prinsipinə uyğun olaraq soya, kartof, soğan və digər bitkilər də əkiləcək. Sözügedən məhsulların saxlanılması üçün 30.000 tonluq taxıl-anbar kompleksinin qurulması, 10.000 tonluq kartof saxlama-soyuducu kamerasının yaradılması nəzərdə tutulur.

8.000 hektar torpaq sahəsini əhatə edəcək aqrotexniki qulluq prosesini vaxtında yerinə yetirmək məqsədilə aqroservis bazasının genişləndirilməsi üçün ABŞ-ın "John Deere" şirkətinin istehsalı olan 30 adda müasir kənd təssərrüfatı texnika və avadanlıqlarının alınması da planlaşdırılır. Nəticədə, 5.000 daimi, 1.500 mövsümi iş yeri yaradılacaq, əlavə olaraq təsərrüfatdaxili yollar çəkiləcək.

"Ceyrançöl"də salınacaq bağçılıq təsərrüfatının məhsulları təməli cənab Prezident İlham Əliyev tərəfindən qoyulmuş "Şəmkir Aqroparkı"nın Logistika Mərkəzində emal ediləcək, həmin məhsulların satışı və ixracı məhz buradan təmin olunacaq.

Aqroparkın Könüllü kənd ərazisində yerləşən hissəsinin ümumi sahəsi 604 hektardır. Bu ərazinin 100 hektarı sənaye sahəsi, 200 hektarı istixanalar, 274 hektarı intensiv bağçılıq, 25 hektarı tingçilik, 5 hektarı şıtilçilik üçün nəzərdə tutulub.

Aqroparkda həyata keçirilən bütün bu işlər ölkəmizdə kənd təsrrüfatının ÜDM-də pay nisbətini artırmağa və əhalini yerli və keyfiyyətli məhsullarla təmin etməyə xidmət edəcək.

"Şəmkir Aqroparkı"nın Logistika Mərkəzində görülən işlər

Fəaliyyətə başlayan Logistika Mərkəzinin ərazisi 12,3 hektardır. Logistika Mərkəzinin ümümi ölçüləri, uzunluğu 254 metr, eni 141 metr, hündürlüyü 14,60 metrdir.

İstehsal sahəsi 3,9 hektar ərazini əhatə edir. Burada Fransanın "Maf Roda" şirkətinin meyvələri ölçüsünə, rənginə, zədəliyinə görə çeşidləyən və qablaşdıran avadanlıqları quraşdırılıb. İri kalibrli meyvələri çeşidləyən avadanlıqların gücü saatda 50 ton, kiçik kalibrli meyvələri çeşidləyən avadanlıqların gücü isə saatda 2 tondur.

Burada İtaliyanın "Isolcell" şirkətinə məxsus, tutumu 24.000 ton olan 71 ədəd ULO tipli soyuducu saxlama kameraları quraşdırılıb. Soyuducu depolarda meyvə və tərəvəzin növlərinə görə 25 gündən 270 günə qədər minimum itki və keyfiyyətlə saxlanılması təmin olunur.

İstehsal sahəsində, eyni zamanda, 200 ton məhsul qəbul edə biləcək 2 terminal, 120 ton hazır məhsul yola sala bilən 1 terminal mövcuddur.

"Şəmkir Aqroparkı"nın Logistka Mərkəzində müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya vardır. Burada meyvə və tərəvəzlərin keyfiyyəti, toksikliyi, bakterioloji və mikrobioloji göstəriciləri üzrə analizlər aparılır.

Logistik Mərkəzdə meyvə və tərəvəzlərin çeşidlənməsi, qablaşdırılması və soyuducu saxlama kameralarında saxlanılması müasir standartlara uyğun mühüm texnoloji proseslərdən keçirilərək aparılır. Bu zaman laboratoriya təhlilləri nəzərə alınır, sonra məhsul xüsusi hidroşoklama qurğusundan keçirilir. Nəticədə, məhsulun çeşidlənməsi və qablaşdırılması zamanı, həmçinin soyuducu kamerada temperatur fərqində zədə alması minimuma endirilir. Mərkəzdə regionda yetişdirilən xurmanın alıcılıq qabiliyyətini aşağı salan xüsusi dadın aradan qaldırılmasını təmin edən "determing room" qurğusu (sutkada gücü 1 ton olan) da var.

Logistika Mərkəzində sahibkarların ixrac əməliyyatları ilə əlaqədar prosedurları sadələşdirmək və sürətləndirmək məqsədilə "bir pəncərə" sistemi qurulub. Burada Dövlət Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyi İstehlak Mallarının Ekspertizası Mərkəzinin, Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarət Xidmətinin, "Atabank" kommersiya bankının müvafiq strukturları fəaliyyət göstərəcək.

Aqroparkın kommunikasiya təminatı üçün dövlət dəstəyi ilə 25,0 meqavat gücündə elektrik stansiyası tikilib, 1 saatda buraxılışı 18.000 m³ olan 9 km qaz xətti, 48 portluq 22 km fibrooptik rabitə xətti çəkilib. Hazırda 11 km uzunluğunda dəmiryolu xəttinin çəkilməsi də layihələndirilir.

"Şəmkir Aqropark"ın Logistika Mərkəzində tam gücü ilə fəaliyyət göstərdiyi halda 274 nəfərin işləməsi nəzərdə tutulur. Hazırda burada 179 nəfər çalışır. Orta əməkhaqqı 600 AZN-dir. Mərkəzdə sahəsi 2.600 m² olan ofis binası, konfrans zalı, qarderob və yeməkxana işçilərin istifadəsinə verilib.

Mərkəzin ərazisində geniş abadlıq işləri aparılıb, 25.000 m2 sənaye sahəsinə yaşıl ot örtüyü, 50.000 m2 sahəyə asfalt döşənib.

Mərkəzin ərazisində avtodayanacaq (o cümlədən, 25 TİR tipli yük avtomobillərinin dayana biləcəyi TIR PARK), helikopter meydançası, qazanxana və 45 kv-lıq yarımstansiya tikilib.

Vergi ödəyicilərinin hüquq və mənafeləri qorunur

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanovanın təşəbbüsü və təşkilatçılığı ilə hər il avqustun 21-dən sentyabrın 21-dək bütün dövlət qurumlarında və regionlarda keçirilən «Sülh aylığı» artıq bir ənənəyə çevrilmişdir.

Vergi orqanları tərəfindən «İnsan hüquq və azadlıqlarının müdafiəsi, o cümlədən sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi» mövzusunda keçirilən görüşlərdə vergi ödəyicilərinin Vergi Məcəlləsi ilə təsbit edilmiş hüquq və vəzifələri, göstərilən elektron xidmətlər, Vergilər Nazirliyinin Çağrı Mərkəzi, rəsmi internet səhifəsi, vergi ödəyicilərinə xidmət mərkəzlərinin fəaliyyəti və s. barədə ətraflı məlumatlar verilir.

Vergi qanunvericiliyində edilmiş dəyişikliklər vergi ödəyicilərinin hüquq və mənafelərinə xidmət edir

Vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və vergi ödəyicilərinin hüquqlarının qorunması ön planda dayanan məsələlərdən olduğu üçün vergi qanunvericiliyi müasir dövrün tələblərinə uyğun olaraq daim təkmilləşdirilir.

Bu baxımdan, vergi qanunvericiliyində edilmiş dəyişikliklərin böyük əksəriyyəti vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunmasına yönəldilmişdir.

Vergi Məcəlləsində vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və s. ödəyicilərin mənafeyi nəzərə alınaraq təkmilləşdirilmişdir.

Aqrar sektorun inkişafını stimullaşdırmaq məqsədilə kənd təsərrüfatı istehsalçıları, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad olunmuş, fiziki şəxslərin əmanətləri üzrə ödənilən faiz məbləğlərindən gəlir vergisinin tutulmasına güzəştlər tətbiq edilmişdir.

Əlillərin, məcburi köçkün və qaçqınların, əhalinin güzəşt hüququ olan digər kateqoriyalarının maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onların aylıq gəlirlərinin vergidən azad olunan məbləğləri 2 dəfəyədək artırılmışdır.

Birinci və ikinci qrup müharibə əlillərinə muzdlu işlə əlaqədar aylıq gəlirinin vergi tutulan məbləğinin 400 manat məbləğində azaldılmasını nəzərdə tutan güzəşt hüququ bütün qruplardan olan müharibə əlillərinə şamil edilmişdir.

Fiziki şəxslərin gəlir vergisinin hesablanmasında edilmiş son dəyişikliklər vətəndaşların gəlirlərinin böyük hissəsinin onların sərəncamında qalmasına şərait yaratmaqla yanaşı, əməkhaqlarının leqallaşdırılması istiqamətində aparılan iqtisadi təşviqetmənin tərkib hissəsi hesab edilir.

Region sahibkarlarının maarifləndirilməsində açıq dialoq formasına üstünlük verilir

Azərbaycan Respublikası Prezidentinin imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Sərəncamına uyğun olaraq vergi qanunvericiliyinə 2017-ci il yanvarın 1-dən edilmiş əlavə və dəyişikliklərin əsas məqsədi sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafı üçün daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın formalaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır. Bu il qüvvəyə minmiş Vergi Məcəlləsində dəyişikliklərin 123-ü vergi inzibatçılığının, o cümlədən vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, 34-ü vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, 8-i vergi yükünün azaldılması, vergi güzəştləri və vergidən azadolmalarla bağlıdır. Vergi qanunvericiliyində edilmiş bu və digər əlavə və dəyişikliklərin sahibkarlara çatdırılması, onların məlumatlandırılması ilə bağlı hər il regionlarda Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri ilə vergi ödəyiciləri arasında silsilə görüşlər keçirilir. Bu görüşlər əsasən sual-cavab formasında dialoq şəraitində qurulur. Cari il yanvar ayının 16-dan 29-dək ölkəmizin regionlarında keçirilən görüşlər belə tədbirlərdən idi. Tədbirlərdə vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov, Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentin, Ərazi vergi orqanları ilə iş üzrə departamentin, Ərazi vergi departamentləri və idarələrinin rəhbərləri, habelə rayon icra hakimiyyəti başçılarının müavinləri iştirak etmiş və ölkənin bütün rayonlarını təmsil edən 3500-ə yaxın vergi ödəyicisinin iştirakı təmin edilmişdir. Görüşlərdə hər bir sahibkara onu maraqlandıran suallarla birbaşa vergilər nazirinin müavininə və digər rəhbər vəzifəli şəxslərə müraciət etmək imkanı yaradılmışdır.